# Yaddaşlarda əbədiləşən bürünc komanda



**Çoxlarınızın dəfələrlə görməyinizə baxmayaraq, yenə maraqla qarşılayacağınıza şübhə etmədiyim foto 1966-cı il noyabrın 30-da həyata vəsiqə alıb. Həmin payız axşamında "Neftçi" Respublika stadionunun tamaşaçılarla ağzınadək dolu tribunaları qarşısında 28-ci SSRİ çempionatının Bakıda vida görüşündə Moskvanın "Spartak" komandasına 3:0 hesabı ilə qalib gələrək, tarixində ilk dəfə bürünc mükafatçı oldu.**

Bu oyunda qələbə moskvalılar üçün də çox mühüm əhəmiyyət kəsb edirdi. Onlar məqsədlərinə çatsaydılar, finişdə "Neftçi"ni qabaqlayacaq, komandamız yekun cədvəlində 4-cü yerlə kifayətlənməli olacaqdı. Amma görüşdə baş verən hadisələrin göstərdiyi kimi, həmin gün qonaqlar meydan sahibləri ilə heç cür bacarmayıb, onların kəskin hücumları və həlledici dəqiq zərbələri qarşısında aciz qaldılar.

Nə həmin parlaq tamaşayadək, nə də ondan sonra Azərbaycan futbolunun ovaxtkı flaqmanının belə böyük nailiyyəti olmayıb. Bu gün bir daha dərc etdiyimiz foto bürünc medallı futbolçuların unudulmaz hünərini əbədiləşdirən tarixi töhfədir.

Bu günlərdə yenə futbolumuzun böyük zəfər günlərini, ustalıqlarını dəfələrlə alqışladığımız insanları minnətdarlıq hissi ilə xatırlayırıq. Onlar həyatlarının ən yaxşı dövrünü, coşqun gənclik illərini bütün respublikanın sevimlisi olan "Neftçi"yə həsr etmiş və onun adının Sovet İttifaqı çempionatlarının mükafatçıları siyahısına yazdırılması üçün əllərindən gələni etmişlər. Respublika adına görülən böyük işlər, qazanılan uğurlar isə heç vaxt yaddan çıxmır.

Fotomüxbirin "Spartak"la oyundan dərhal sonra lentə aldığı qaliblər idman ictimaiyyətimizə yaxşı tanışdırlar. Onların adlarını bir daha hörmətlə çəkək. Fotoda ayaq üstə duranlar (sağdan sola): baş məşqçi Əhməd Ələsgərov, Kazbek Tuayev, Yaşar Babayev, Aleksandr Trofimov, Vladimir Bruxti, Nikolay Boqdanov, komandanın rəisi Şövkət Orduxanov, Sergey Kramarenko, məşqçi Valentin Xlıstov, Vyaçeslav Semiqlazov, komandanın həkimi Boris Xetaqurov; oturanlar (yenə sağdan sola): Valeri Hacıyev, Mübariz Zeynalov, Anatoli Banişevski, Eduard Markarov və inzibatçı Aydın İsmayılov.

Allah rəhmət eləsin, bütünlüklə Azərbaycan futbolunun yetirmələrindən ibarət olan bu komandanın bir çox üzvü əbədiyyətə qovuşub. Həyatda olanlardan iki həftə əvvəl, noyabrın 13-də K.Tuayevin 85 yaşı tamam olub, onun yaşıdı B.Xetaqurov isə bu günlərdə özünün Feysbuk səhifəsində diqqətə çatdırdığı kimi, tezliklə "Zapiski futbolnoqo vraça" ("Futbol həkiminin qeydləri") kitabını nəşr etdirəcək. Şübhəsiz, kitab futbol ictimaiyyətimizə dəyərli töhfə olacaq. Həyat və fəaliyyəti "Neftçi" ilə sıx bağlı olmuş məşhur həkimin qeydlərinin nəşrini maraqla gözləyək.

"Spartak"la 59 il əvvəlki görüşə qayıdıb, qeyd edək ki, tallinli hakim Y.Xyarmsın idarə etdiyi oyunda bütün komanda əvvəldən axıradək tamaşaçıların alqış sədaları altında əla mübarizə apardı, matçın qəhrəmanı isə 2 qolun müəllifi Banişevski oldu. O və çempionatda "Neftçi"nin ən sərrast oyunçusu, 14 qolun müəllifi Tuayev mövsümün yekunlarına görə SSRİ-nin ən yaxşı 33 futbolçusu sırasına daxil edildilər.

Nəhayət, onu da xatırladaq ki, "Neftçi" Azərbaycan futbolu üçün çox əlamətdar olan 28-ci çempionatda 34 oyunda 68 mümkün xaldan 45-ni topladı. Bu, bütün ölkə birinciliklər ərzində komandanın ən yüksək göstəricisidir. Statistikaya müraciət etsək, görəcəyik ki, həmin il Bakı kollektivi gümüş mükafatçı Rostovun OİK komandasından cəmi 2 xal geri qalıb və onunla hər iki oyunda meydandan qalib ayrılıb – evdə 4:1, səfərdə 3:1.

..."Neftçi"nin bürünc medallarının 60 illik yubileyinə 1 il qalır.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Xalq qəzeti.- 2025.- 2 dekabr (№ 254).- S.12.